## Oruç Dadaşi Elman

### Qələm

Səni yar ölçüdə taleh mənə qismət verəcək
Ürəyimdən doğulan sevgiyə qimət verəcək

Bilirəm doğru gözəllik payı gəlməkdə yəqin
Sınayıb aşiqini, can dolu həsrət verəcək

Üzü qibləm sarı göz yaşlarımın hüsnü budur
İki yardan birisi könlümə diqqət verəcək

Biri həqdir, mən onun lütfünə vardır umudum
Biri sənsən qələmim, həq sənə hörmət verəcək

Ayağın yüngül olub qəm qapısı bağlanacaq
Gəlişin bir daha da sevgiyə fürsət verəcək

Qəzəlin bağrına köç, könlünü hikmətli yaşat
Ürəyim boyda ucal, el sənə qüdrət verəcək

Varağın bağrını incitmə, gileydən uzaq ol
Yeri gəlcək sənə qoynunda da cənnət verəcək

Qələmim nun sözü, olsun kı həmin nur sözüdür
Qələm aydınlığa doğru elə nüsrət verəcək

Elə yaz sözlərimi, həm oxuyan həm eşidən
Ürəyindən sənə alqış kimi sərvət verəcək

Bulağ ol, qoy axarın əyrini - düzdən ayıra
Dəniz olcaq axışın yurduma ləzzət verəcək

Sevilən kəlmələrin qəlbini fəth eylə, inan
Elim arxanda durub bil sənə cürət verəcək

Yaralı sözlərinən yarma ürəklər yarasın
Yaradan, hər yaradan ellərə ibrət verəcək

Yenə sözlər hörüyün aç dara bir Nazlı qəzəl
Dara çəkməkdə o saçlar, mənə möhlət verəcək

Eli Azər, yeri baycan, dili türkün beşiyi
Adının vurğunuyam, *Elman*a izzət verəcək